**Səmirə Vüqar qızı VƏLİZADƏ**
Western Caspian University
E-mail: semirevelizade@gmail.com

# SOSİAL ŞƏBƏKƏLƏRDƏ TƏTBİQLƏR

**Xülasə**

Bu məqalədə XXI əsrin ayrılmaz parçası olan internetin rolundan, sosial şəbəkənin tarixindən və tətbiqlərindən bəhs olunub. Sosial şəbəkələr insanları bağımlılıq halına gətirib çıxarmışdır. İnsanların bir-biri ilə ünsiyyətlərini genişləndirməsinə maariflənmə baxımından sosial medianın böyük rolu olmuşdur. Sosial şəbəkənin müsbət cəhətləri ilə yanaşı, mənfi cəhətləri də məqalədə öz əksini tapmışdır. Mənfi cəhətlərində bir çoxunu sadalamaq olar. Bunlardan biri də insanlar real həyatdan uzaqlaşmağa və günün bir çox hissəsini orada keçirməyəbaşlamışdılar Sosial şəbəkənin üstün cəhətlərində biri də istifadəçilərin saytlarda reklam vasitəsilə qazanc əldə etmələri idi. İnsanlar interneti kiçik biznes kimi görürdülər. İlk sosial şəbəkə saytı olan Geocities yaradıldı. Geocities insanlara vebsaytlar qurmaq və elanlar və fotoşəkillərlə dünyaya özləri haqqında məlumat vermək üçün bir şərait yaratmışdı. 1995-ci ildə, Randy Conrad sosial şəbəkə saytını - Classmates.com yaratdı. Beləliklə sosial şəbəkə davamlı olaraq inkişafın davam etdirməkdədir. Məqalədə Facebook, WhatsApp, Telegram, İnstagram, LinkedIn tətbiqlərinin yaranma taixinindən məlumat verilib. Bu proqramların istifadəsi olduqca sadədir və pulsuz proqlarmlardır. WhatsApp və Telegram proqramı mesajlaşma proqramıdır. **Facebook və İnstagram,** meta şirkətinə aid onlayn sosial media platformasıdır. LinkedIn biznes yönümlü sosial şəbəkədir. Bu tətbiqlər haqqında məlumatlar məqalədə öz əksini tapmışdır.

**Açar sözlər:** Sosial şəbəkə, Sosial şəbəkənin tətbiqləri, İnternet, Sosial media, Sosial şəbəkənin tarixi

**DOİ:** 10.54414/ZFMJ2565

## Giriş

Bu dövrü yəni XXI əsri internetsiz düşünmək qeyri-mümkündür. 1990-cı illərdə beynəlxalq şəbəkənin yayılması ilə internet müasir insan həyatının əsasına çevrilib. Sosial şəbəkə həyatımızın çox hissəsini təşkil edir və artıq çox insanlarda bağımlılıq halına gəlmişdir. Elə bir dövrdə yaşayırıq ki, günümüzü sosial şəbəkəsiz təsəvvür edə bilmirik. Sosial şəbəkə aktual məsələlər sırasındadır. Ümumiyyətlə şəbəkə qarşılıqlı əlaqələr yaratma qabiliyyətinə əsaslanan sosial məkan yaratmaq üçün universal bir üsuldur. İnsanlar artıq bir yerdə görüşmək əvəzinə internet vasitəsi ilə ünsiyyət qururlar. Sosial şəbəkədən istafədənin mənfi və müsbət cəhətləridə var.İnsanların bir biri ilə əlaqə qurub və əlaqələrini genişləndirmələri, maariflənmə və maarifləndirmə baxımından da sosial media mühüm rol oynayır. Sosial şəbəkəyə həddən artıq aludə olmaq, günün bir çox hissəsini orada keçirmək ilk öncə insan əsəblərinə ziyan olmaqla yanaşı, onlarda aqressivlik, səbrsizlik və gözlərimizə də mənfi təsir göstərir. İnsanlar sosial şəbəkələrin təsiri altında qalaraq öz Ətrafından, dostlarından, ailəsindən uzaqlaşırlar.

Digər səbəblərindən biri sosial şəbəkə insanlarda asılılığı artırır bununla da insanlar real həyatdan uzaqlaşırlar. Bu asılılıqın ortaya çıxması insanlarda psixoloji problemler yaradır. İnternetdə sosial şəbəkə interaktivdir və hər hansı mövzunu istədiyimiz soial şəbəkə saytlarında paylaşım edə bilirik. Əvvəllər insanlar məlumat almaq üçün kitabxanaya gedirdilər, şüphəsiz ki,yenə də gedirlər amma indi vaxtlarını yola xərcləməkdən istənilən məkan və vaxtdan asılı olmayaraq rahatlıqla istədiyi məlumatı araşdırıb rahatlıqla tapa bilirlər. Eyni zamanda bəziləri sosial şəbəkələrdən qazanc əldə edə bilirlər. Rəqəmsal marketinq vasitəsi ilə insanlar sosial şəbəkə üzərindən öz reklamlarını göstərmklə, məhsullarını satışa qoymaqla

qazanc əldə edirlər. Belə bir hal baş verir ki, insanlar məhsulları onlayn şəkildə almağa başlayır. İnternet yoxdursa rəqəmsal marketinq də yoxdur. Sosial şəbəkələr sosial münasibətlərin qurulması üçün getdikcə həyati əhəmiyyət kəsb edən və əvəzedilməz mənbəyə çevrildiyindən, pandemiya dövründə onlardan istifadə artdı. COVİD-19 pandemiyası başladıqda insanlar çölə çıxa bilmədiyindən internetdən daha çox istifadə etməyə başladılar. Sosial şəbəkə cəmiyyətimizin inkişafında böyük rol oynamağa başladı.

1994-cü ildə ilk sosial şəbəkə saytı olan Geocities yaradıldı. Geocities insanlara vebsaytlar qurmaq və elanlar və fotoşəkillərlə dünyaya özləri haqqında məlumat vermək üçün bir yol təklif etdi. Beləliklə istifadəçilər onlayn mağazalar vasitəsilə də əşyalar alıb sata bilərdilər.

Keçmiş məktəb yoldaşlarını bir-biri ilə əlaqələndirmək üçün yaradılmış vebsayt 1995-ci ildə, Randy Conrad ilk sosial şəbəkə saytını - Classmates.com yaratdı. Bu şəbəkə günümüzdə ın populyar saytdır və 50 milyondan çox istifadəçiyə malikdir. Yaradlan müddət ərzində sürətli inkişaf etməyə başladı. Classmates.com bu gün də mövcuddur və populyarlığını 1995-ci ildən qazanmışdır.

1997-ci ildə Andrew Weinreich tərəfindən yaradılan SixDegrees ilk onlayn biznes idi. Müəllif David Kirkpatrick "The Facebook Effect"də yazırdı: "həqiqi adlarından istifadə edərək real insanlar arasında bir sıra real münasibətləri müəyyən etməyə və xəritələşdirməyə cəhd edən ilk onlayn biznes idi". Bu sayt milyonlarca insanların diqqətini cəlb etsə də, effektli olamayıb 2000-ci ildə bağlandı.

Daha sonra 2002-ci ildə Jonathan Abrams tərəfindən Friendster yaradıldı. Bəzi insanların sosial şəbəkəyə ilk girişi oldu. Bu sayt, 1 il müddətində 2 milyondan çox istifadəçi oldu. Sayt çoxlu vədlər göstərdi və Facebook-a ilk investisiya edən investorlardan oldu.

MySpace istifadəçisinin sahibkarları 2003-cü ildə Chris DeWolfe və Tom Anderson tərəfindən istifadəyə verilmişdir. Sayt populyar bir internet məkanına çevrildi və çox tanınmayan musiqiçilərin özlərini bazara çıxarması və pərəstişkarları ilə ünsiyyət qurması üçün vacib bir metod oldu. 2008-ci ildə 76 milyon ABŞ ziyarətçisi ilə ilk sıralarda yerini aldı, lakin MySpace illər keçdikcə popurlallığını itirməyə başladı çünki saytın banner reklamından çox istifadə etməsi səhvələrdə yüklənmə sürətini yavaşlatdı. Digər səbəb isə insanların şəxsi profili fərdiləşdirmək istifadəçilərini sıxmağa başladı. İnsanlar saytı tərk edib Facebook-a yönəldilər.

**Sosial şəbəkələr və gündəlik həyatda istifadə etdiyimiz tetbiqlərin mahiyyəti**

**Facebook**, onlayn sosial media platformasıdır. Sosial şəbəkə şirkətinin Meta platformalarının bir hissəsi olan xidmətdir.Facebook sosial şəbəkə saytı Amerika şirkətinəməxsusdur. Facebook 2004-cü ildə Mark Zukerberq əsas tərtibçisi olmuşdur. Digərləri Eduardo Saverin, Dastin Moskovitz və Chris Hughes olmuşdur. TheFacebook.com sosial şəbəkəsi 2004-cü ilin fevralında fəaliyyətə başlayıb. 1 il ərzində TheFacebook bir milyon aktiv istifadəçiyə gəlib çatdı.

Bu sayt, 2006-cı ilə qədər 13 yaşından yuxarı şəxslər şəbəkəni ziyarət edə bilərdi. Burada istifadəçilər çox asan şəkildə şəxsi profil yarada bilər, öz fotoşəkillərini yükləyə bilərlər. Facebook-un bir çox komponentləri var, o cümlədən Timeline, hər bir istifadəçinin profil səhifəsində dostlarına mesaj göndərə biləcəyi boşluqdur.İstifadəçilər bir-biri ilə söhbət edə və bir-birlərinə şəxsi mesajlar göndərə bilərlər. Digər komponenti News Feed yəni Xəbər Lenti, istifadəçilərə dostlarının profillərində və statuslarında dəyişikliklər barədə məlumat verir. Facebook istifadəçiləri məzmunu təsdiqlədiklərini bəyənmə düyməsi ilə bildirə bilərlər ki, bu funksiya bir çox digər vebsaytlarda da görünür. Bu vebsayta daxil olmaq pulsuzdur və şirkət gəlirinin çox hissəsini vebsaytdakı reklamlardan qazanır. 2021-ci ilin oktyabr ayında Facebook, ana şirkətinin adını Meta Platformalar olaraq dəyişdirdiyini elan etdi. Ad dəyişikliyi istifadəçilərin virtual reallıq mühitlərində qarşılıqlı əlaqədə olacağı və yeni imkan və risklərini ölçüb-biçəcəkləri “metaverse” üzərində vurğunu əks etdirirdi. Hal-hazırda da bu sayt dünyada ən çox istifadəçisi olan sosial şəbəkədir.

**İnstagram**- 6 oktyabr 2010-cu ildə, İnstagram Kevin Systrom tərəfindən rəsmi olaraq istifadəyə verildi. 1 gün içində 25.000 istifadəçi oldu.Sosial media üçündəbu fenomenal nailiyyətdir. Bu şəbəkədə insanlar öz fotoşəkil-

lərini paylaşa bilər. Eyni zamanda sayta qısa videolar yerləşdirmək olur. Bu saytdan insanlar reklem vasitəsilə qazanc əldə edir və öz xırda bizneslərini inkişaf etdirə bilirlər. Bu reklamlarda istifadəçilərə məhsulların təsvirini, qiymətini, hətda alış-veriş etməyə imkan verir. Bu tətbiqin əsas məqsədi mobil cihazlarında olan fotoşəkillərini nümayiş etdirmək idi. Android mobil cihazlarında Instagram 3 aprel 2012-ci ildə fəaliyyətə başlayır. 9 aprel 2012- ci ildə İnstagram-ın təklifindən Facebook şirkəti səhm və 1 milyard dollar qarşılığında satın aldı. İnstagramda Bumeranq 22 oktyabr 2015-ci ildə buraxıldı. Instagram istifadəyə verildikdən cəmi üç ay sonra bir milyon istifadəçiyə çatdı. İnstagram Kevin Systrom- un Mayk Krigerləgörüşü nəticəsində yaranıb. İnstagramdan istifadə çox sadədir. İstədiyimiz şəkilləri çəkib onları qeyri-adi bir şeyə çevirə bilərik. Bu sayt yeni maraqlı funksiyalarla doludur və gündən-günə yeni özəlliklər gəlir. 2013 –cü il İnstagram-da videolara keçid edə bildi. Daha sonra saytda hesablarda gələnlər qutusuna yeni mesajlar əlavə edildi. 2018-ci ildə İnstagam YouTube ilə müqayisə aparmaq üçün videolarda 60 dəqiqəlik yayımlama imkanı yaratdı. E-ticarət cəhətdəndə İnstagramın populyarlığı daha da artdı. 2020-ci ilin aprelində COVİD-19 pandemiyası başladıqda insanlar İnstagramı artıq kiçik biznes kimi görürdülər. Bu pandemiya ərzində saytda Live-a baxanların sayı 70% artdı və istifadəçilər məhsullarını canlı yayın vasıtəsilə göstərməyə başladı. Dünyanın böyük tanınmış platformalarından olan Instagram 2022-ci ildə aylıq iki milyard aktiv istifadəçini ötüb. Burada insanlar bir-biri ilə şəxsi mesaj (DM) vasitəsilə əlaqə qururlar. Həmçinin müxtəlif işıqlandırma effektləri, mətn, gif, ikona və filtrlərdən istifadə etməklə yeni və ya mövcud foto və ya videoları redaktə etmək imkanı daxildir. Facebook-da olduğu kimi buxidmətdən də istifadə etmək pulsuzdur eyni zamanda gelirlerini reklamlardan əldə edirlər.

**WhatsApp**, Meta şirkətinə məxsusdur. 2009-cu ildə Brian Acton və Jan Koum tərəfindən yaradılmış pulsuz mesajlama proqramıdır. Bu program vasitəsilə istifadəçilər platformada mətn və səsli mesajlar ilə canlı ünsiyyət qura bilirlər. WhatsApp, həmçinin olduqları yeri, şəkil paylaşımını edə bililər. Program mobil cihazlarda istifadə olunur, çünki proqramdan qeydiyyatdan keçmək üçün şəxsi mobil nömrəni qeyd edib, sms vasitəsilə whatsApp güvənlik kodunu göndərir beləliklə o kodu yazmaqla proqrama daxil olmaq olur. WhatsApp-ın populyarlığı platformalar arasında Apple cihazlarından Android cihazlarına qədər beynəlxalq səviyyədə ünsiyyət qurmaq qabiliyyətindən irəli gəlirdi. Program 2014-ci il 19 fevral tarixində Facebook tərəfindən 19 milyard dollara satın alınıb. Bu proqram, yarandıqdan bəri pullu proqram oluşdur, lakin 2016 ci ildə etibarən bütün platformalarda pulsuz olmuşdur. WhatsApp dünya üzrə 2021-ci ilə qədər 2,2 milyardan çox istifadəçiyə malik olmuşdur. İstifadəçisinə görə ilk başda Hindistan , 2-ci yerdə Braziliya , 3-cü yerdə isə İndoneziyadır.

**LinkedIn**—biznes yönümlü peşəkar peşələrin insanlarıüçün sosial şəbəkədir. 2002-ci ilin dekabrında qurulsada 2003-cü ildə fəaliyyətinə başlıyıb. Sosial şəbəkənin əsasını Rid Hofman qoymuşdur. Şirkət isə Kaliforniyanın Mauntin-Vyu şəhərində yerləşir. Bundan başqa Çikaqo, Nyu-York və Londonda ofisləri var. 2013-cü ildə LinkedIn dünyanın 200-dən çox ölkəsində və 200 milyondan artıq istifadəçinin qeydiyyatdan keçmişdir. Platformada insanlar müxtəlif hədəflər üçün əlaqələr siyahısından istifadə edə bilərlər. Məsələn, iş axtarışında olanlar üçün, vakasiyaları dərc etmək, öz maraqlarına görə qruplar yaratmaq. Sayd 20- dən artıq dildə əlçatandır. Demək olar ki, LinedIn sosial şəbəkə saytından qeydiyyatdan keçənlərin sayı 300 milyonu ötmüşdür. bu saytın istifadəçiləri təxminən 56 faizi kişilər, 4 faizini isə qadınlar təşkil edir. Sayda aktivliyinə görə ABŞ-dan sonra 2-ci yeri Hindistan tutur. 2016-cı ildə Microsoft şirkəti LinkedIn sosial şəbəkəsini 26,2 milyard dollara almışdır.

**Telegram** — platforma pulsuzdur və bulud əsaslı mesajlaşma xidmətidir. Rus sahibkarları Pavel və Nikolay Durova-ya sahib mesajlaşma proqramıdır. Xidmətə smartfonlar, fərdi kompüterlər və veb brauzerlər vasitəsilə daxil olmaq olar. Söhbətlər və videolar ucdan-uca şifrələnmişdir. Apple üçün 2013-cü ilin avqust ayında ,

Android üçün 2013-cü ilin oktyabr ayında, Windows və macOS 2013-cü ildə noyabrda istifadəyə verilmişdir. Şirkətin qərargahı BirləşmişnƏrəb Əmirliyinin Dubay şəhərində yerləşir. Telegramın hesabları mobil nömrələrə bağlıdır və sms ilə təsdiqlənir. İOS və ya Android platformasından hesab yaratmaq mümkündür. İstifadəçilər öz hesablarına birdən çox hesab əlavə edə bilərlər. Qoşulmuş cihazları ayrı-ayrılıqda və ya bir anda çıxara bilərlər. Bu hesabı istədiyimiz vaxt silmək olur, 6 ay ərzində proqrama daxil olunmasa avtomatik olaraq silinir.

**Nəticə**

Nəticə olaraq onu deyə bilərik ki, sosial şəbəkə həyatımızda böyük rol oynayır. Sosial şəbəkə insanların bir-biriləri ilə daha asan ünsiyyət qura bildikləri platformadır. Sosial şəbəkədən istifadə vaxt və məkan baxımından istədiyimiz məlumatı anında axtarış motorlarından istifadə edərək asanlıqla əldə edirik. Bu platformanın müsbət cəhətləri olduğu kimi mənfi cəhətlərinin də olmasıdır. İnsanlarda asılılıq yaratmasıdır, çünki insanlar real həyatdan uzaq qalırlar. Bu hadisə də insanlarda psixoloji problemlərə, əsəbi, stressli olmağa gətirir çıxarır. Sosial şəbəkədən insanlar öz bizneslərini asanlıqla qura bilirlər. İnstagram  və Facebook kimi saytlarda reklamlar yerləşdirərək rəqəmsal marketinqi inkişaf etdirib və yerləşdirdikləri reklamlardan qazanc əldə edirlər. LinkedIn kimi biznes yönümlü saytdan isə vakansiya yerləşdirə bilirik. WhatsApp proqraqmı davamlı kimləsə əlaqə qurduğumuz proqramdır. SMS göndərmək əvəzinə WhatsApp-dan mesaj göndəririk. Halhazırda demək olar ki, internetsiz yaşamaq qeyri-mümkündur.

**Samira Valizada Vuqar qızı**
Western Caspian University
E-mail: semirevelizade@gmail.com

## APPLICATIONS IN SOCIAL NETWORKS

**Abstract**

This article discusses the role of the Internet, which is an integral part of the XXI century, and the history and applications of the social network. Social networks have made people addicted. Social media has played a major role in educating people to expand their communication with each other. In addition to the positive aspects of the social network, the negative aspects are also reflected in the article. Many of its disadvantages can be list. One of them was that people began to move away from real life and spend most of the day there. One of the advantages of the social network was that users could earn money through advertising on the sites. People saw the Internet as a small business. Geocities, the first social networking site, was created. Geocities made it possible for people to build websites and tell the world about themselves with ads and photos. In 1995, Randy Conrad created the social networking site - Classmates.com. Thus, the social network continues to develop continuously. The article provides information about the creation of Facebook, WhatsApp, Telegram, Instagram, and LinkedIn applications. These programs are very easy to use and are free. WhatsApp and Telegram are messaging apps. Facebook and Instagram is an online social media platform owned by Meta. LinkedIn is a business-oriented social network. Information about these applications is reflect in the article.

**Key words:** Social network, Applications of social network, Internet, Social media, History of social network

**Ализада Самира Вугар кызы**
Западно-Каспийский Университет
E-mail: semirevelizade@gmail.com

## ПРИЛОЖЕНИЯ В СОЦИАЛЬНЫХ СЕТЯХ

**Резюме**

В данной статье рассматривается роль Интернета, который является неотъемлемой частью XXI века, а также история и применение социальной сети. Социальные сети сделали людей зависимыми. Социальные сети сыграли важную роль в обучении людей расширению общения друг с другом. Помимо положительных сторон социальной сети, в статье отражены и отрицательные стороны. Можно перечислить множество его недостатков. Одним из них было то, что люди стали отдаляться от реальной жизни и проводить там большую часть дня. Одним из преимуществ социальной сети было то, что пользователи могли зарабатывать деньги за счет рекламы на сайтах. Люди рассматривали Интернет как малый бизнес. Была создана первая социальная сеть Geocities. Geocities позволил людям создавать веб-сайты и рассказывать о себе миру с помощью рекламы и фотографий. В 1995 году Рэнди Конрад создал социальную сеть Classmate.com. Таким образом, социальная сеть продолжает непрерывно развиваться. В статье представлена информация о создании приложений Facebook, WhatsApp, Telegram, Instagram и LinkedIn. Эти программы очень просты в использовании и бесплатны. WhatsApp и Telegram — приложения для обмена сообщениями. Facebook и Instagram — это онлайн-платформа социальных сетей, принадлежащая компании Meta. LinkedIn — социальная сеть, ориентированная на бизнес. Информация об этих приложениях отражена в статье.

**Ключевые слова:** Социальная сеть, Приложения социальных сетей, Интернет, Социальные сети, История социальной сети

## ƏDƏBİYYAT SİYAHISI:

1. Nüsrət Xəlilov - Ən çox istifadə edilən sosial şəbəkələr [Electronic resource]//URL: https://nusratkhalilov.wordpress.com/2017/07/10/%C9%99n-cox-istifad%C9%99-edil%C9%99n-sosial-s%C9%99b%C9%99k%C9%99l%C9%99r/
2. The history of the social network [Electronic resource]//URL: https://economictimes.indiatimes.com/corporate-industry/beyond-facebook-a-look-at-social-network-history/a-look-at-social-network-history/slideshow/13296931.cms
3. SOSİAL ŞƏBƏKƏLƏRDƏ İNFORMASİYANIN İDARƏETMƏ MODELLƏRİ [Electronic resource]//URL: https://unec.edu.az/application/uploads/2018/12/LALE-SON-VERSIYA.pdf;seh-7
4. The history of Facebook [Electronic resource]//URL: https://www.britannica.com/topic/Facebook
5. The history of Instagram [Electronic resource]//URL:https://www.britannica.com/topic/Instagram
6. The history of WhatsApp [Electronic resource]//URL: https://www.britannica.com/topic/WhatsApp.
7. LinkedIn yaranma tarixi [Electronic resource]//URL: https://az.wikipedia.org/wiki/LinkedIn
8. Telegram-ın yaranma tarixi [Electronic resource]//URL: https://az.wikipedia.org/wiki/Telegram

**Daxil olub:** 02.07.2021